# AZƏRBAYCAN UNİVERSİTETİ

# “KEYFİYYƏT ELÇİLƏRİ” KLUBUNUN

# ƏSASNAMƏSİ

**Bakı- 2025**

## Mündəricat

**Maddə 1. Ümumi Müddəalar** ........ 3
**Maddə 2. Klubun məqsədi** ........ 3
**Maddə 3. Klubun fəaliyyət istiqamətləri** ........ 4
**Maddə 4. Klubun əsas vəzifə və hüquqları** ........ 4
**Maddə 5. Kluba üzv olan şəxslərin hüquq və öhdəlikləri** ........ 4
**Maddə 6. Klubun strukturu** ........ 5
**Maddə 7. Yekun müdəalar** ........ 5

# Azərbaycan Universitetinin “Keyfiyyət elçiləri klubu”nun

# Əsasnaməsi

**Maddə 1. Ümumi Müddəalar**

1.1.“Keyfiyyət Elçiləri” klubu (bundan sonra “Klub”) Azərbaycan Universitetində (bundan sonra “Universitet”) Keyfiyyət təminatı şöbəsi nəzdində fəaliyyət göstərən tələbə klubu olub, Universitetdə keyfiyyət mədəniyyətinin formalaşmasında və inkişafında, o cümlədən tələbəyönümlü tədrisin təşkilində tələbələrin fəal işini təmin etmək, könüllülük prinsiplərini əldə rəhbər tutaraq tələbələrin hüquq və maraqlarını müdafiə etmək, tələbələr arasında maarifləndirmə işləri aparmaq, onların hüquqlarının qorunmasına dəstək olmaq, qarşılaşdıqları problemləri aradan qaldırmaq məqsədilə ilə təsis edilmişdir;

1.2. 20 noyabr 2025-ci ildə təsis edilmiş klub ilkin olaraq 8 üzvlə fəaliyyətə başlamışdır;

1.3. Bu Əsasnamə klubun hüquq və vəzifələrini, fəaliyyət istiqamətlərini, strukturunu, idarəetmə prinsiplərini, həmçinin Universitetin digər bölmə və xidmətləri ilə qarşılıqlı əlaqələrinin forma və məzmununu müəyyən edir;

1.4. Klub keyfiyyət təminatına dair tədrisin təşkilində və tələbələrin tədris fəaliyyətində yaranan sual və problemlərlə bağlı məsələlərin operativ həllinə dair müzakirələr aparır, müvafiq struktur bölmələrinə (kafedra, dekanlıq, Tədris şöbəsi, rektorluq, Tələbələrlə iş şöbəsi) müraciət edir və müraciətlərinin həllinin nəticəsi ilə bağlı Keyfiyyət Təminatı Şöbəsinə (KTŞ) məlumat verir;

1.5. Klubun fəaliyyəti könüllülük, şəffaflıq, əməkdaşlıq və məsuliyyət prinsipləri əsasında həyata keçirilir;

1.6. Klub hüquqi şəxs deyil. Klubun ilkın balansı, dəyirmi möhürü və ştampı, üzərində adı yazılmış blankları, firma nişanı ola bilməz;

1.7. Klubun fəaliyyətinin dayandırılması, yaxud onun ləğvi Universitetin Rektorunun müvafiq qərarı əsasında həyata keçirilir;

1.8. Klubun öz vəzifə və səlahiyyətlərini yerinə yetirmək üçün zəruri olan maddi təminat və dəstək Universitet tərəfindən təmin edilir;

1.9. Bu Əsasnamə Universitetin Rektoru tərəfindən təsdiqləndiyi tarixdə hüquqi qüvvəyə minir;

1.10. Əsasnaməyə dəyişiklik etmək, Əsasnamənin aydın olmayan müddəalarını şərh etmək və icraya yönəltmək Universitetin Rektorunun səlahiyyətindədir.

**Maddə 2. Klubun məqsədi**

2.1. Universitetdə keyfiyyət mədəniyyətinin formalaşdırılmasında tələbələrin fəal iştirakını təmin etmək və ölkədə ali təhsil sahəsində keyfiyyət təminatı ilə əlaqəli proses və tədbirlərdə digər ATM-lərlə əməkdaşlıq əlaqələri qurmaq və təcrübə mübadiləsinə töhfə vermək.

**Maddə 3. Klubun fəaliyyət istiqamətləri**

3.1. Universitetdə təhsil prosesinin keyfiyyətinin yüksəldilməsində tələbələrin fəal iştirakını təmin etmək;
3.2. Tələbələr arasında təhsildə keyfiyyət təminatı ilə bağlı maarifləndirmə işləri aparmaq;
3.3. Tələbələrin hüquq və maraqlarının müdafiəsində vasitəçi rolunu oynamaq;
3.4. Tələbələrin akademik və inzibati məsələlərlə bağlı rəy və təkliflərini toplamaq və müvafiq struktur bölmələrinə çatdırmaq;
3.5. Təlim və tədris mühitinin yaxşılaşdırılması məqsədilə yeni ideya və təşəbbüslərlə çıxış etmək;
3.6. Tələbələrin təhsilin keyfiyyəti ilə bağlı qərarların qəbul olunmasında maraq, motivasiya və fəallığını artırmaq.

**Maddə 4. Klubun əsas vəzifə və hüquqları**

Klubun vəzifələri aşağıdakılardır:

4.1.1. Tələbələr arasında keyfiyyətli təhsilin əhəmiyyətini təbliğ etmək və bu sahədə keyfiyyət, akkreditasiya, tədrisin təşkili və digər mövzularda maarifləndirici tədbirlər (seminar, təlim, görüş) təşkil etmək;
4.1.2. Tələbələrin tədris prosesi ilə bağlı fikir və təkliflərini toplayaraq KTŞ-yə çatdırmaq;
4.1.3. Tədrisin keyfiyyətinin artırılması üçün yeni ideyalar, layihələr və təşəbbüslərlə çıxış etmək;
4.1.4. Tələbələrlə rəhbərlik arasında körpü rolunu oynamaq, qarşılıqlı dialoqu dəstəkləmək;
4.1.5. Tələbələrin təhsil hüquqları ilə bağlı qarşılaşdıqları problemləri aradan qaldırmaq məqsədilə Keyfiyyət Təminatı Şöbəsi və Universitet rəhbərliyinə rəy və təkliflərini bildirməkdir.

Klubun hüquqları aşağıdakılardır:

4.1.6. Keyfiyyət təminatı məsələləri üzrə digər ali təhsil müəssisələri ilə əməkdaşlıq çərçivəsində layihələr hazırlamaq, onların maliyyələşdirilməsi məqsədilə uyğun sponsor təşkilatlara müraciət etmək, həmçinin Universitetin Beynəlxalq Əlaqələr Şöbəsinin dəstəyi ilə beynəlxalq tərəfdaşlıqların qurulması təşəbbüsü ilə çıxış etmək;
4.1.7. Ölkədaxili ATM-lərdə fəaliyyət göstərən keyfiyyət təminatı ilə əlaqəli oxşar təşkilatlarla assosasiyalarının yaradılmasında iştirak etmək və bu kimi klublarla əlaqələrlər yaratmaq;
4.1.8. Universitetin keyfiyyət təminatı ilə əlaqəli məsələləri ilə bağlı KTŞ-yə müraciət etmək və məsələ qaldırmaq.

**Maddə 5. Kluba üzv olan şəxslərin hüquq və öhdəlikləri**

5.1. Klub üzvlərinin hüquqları aşağıdakılardır:
5.1.1. Klubun idarəçiliyində iştirak etmək;
5.1.2. Klubun təşkil etdiyi tədbirlərdə iştirak etmək;
5.1.3. Klubun fəaliyyəti barədə məlumat almaq;
5.1.4. Müxtəlif layihə və proqram təşəbbüsü ilə çıxış etmək;
5.1.5. Keyfiyyət təminatı ilə bağlı Universitet daxilində aparılan fəaliyyətlər, qərarlar və yeniliklər barədə məlumat almaq;
5.1.6. Akademik və inzibati proseslərə rəy bildirmək;
5.1.7. Klubun təşkil etdiyi keyfiyyət və təhsil sahəsində keçirilən universitetdaxili və xarici seminar, forum, təlimlərə qatılmaq;
5.1.8. Klubun fəaliyyət istiqamətləri və qərarları ilə bağlı açıq şəkildə rəy və təkliflərini bildirmək;

5.1.11. Klub daxilində qəbul olunan qərarlarda iştirak etmək və səsvermə hüququna malik olmaq;
5.1.12. Komanda daxilində qarşılıqlı hörmət və bərabərlik əsasında əməkdaşlıq etmək.

5.2. Klub üzvlərinin öhdəlikləri aşağıdakılardır:

5.2.1. Təhsildə keyfiyyət təminatı - tələbə hüquqları və tədris prosesi ilə bağlı maarifləndirmə işində KTŞ-yə dəstək olmaq;
5.2.2. Klubun Əsasnaməsinə və universitetdaxili nizam-intizam qaydalarına riayət etmək;
5.2.3. Klub tədbirlərində aktiv iştirak etmək;
5.2.4. Tələbə rəylərini toplanmasında Universitetin müvafiq struktur bölmələrinə dəstək olmaq;
5.2.5. Məxfi və həssas məlumatların gizliliyini qorumaq;
5.2.6. Universitetin təhsil mühitinin inkişafına töhfə verəcək təşəbbüslərlə çıxış etmək, gördüyü işlərə məsuliyyətlə yanaşmaq;
5.2.7. Klubun təşkil etdiyi fəaliyyətlərdə aktiv iştirak etmək;
5.2.8. Klubun nüfuzunu qorumaq, fəaliyyətlərdə məsuliyyətli və etibarlı davranmaq;
5.2.9. Digər üzvlərlə birlikdə işləmək, təşəbbüslərə dəstək olmaq, birgə qərarlara hörmətlə yanaşmaq;
5.2.10. Tədris keyfiyyətinin yüksəldilməsi ilə bağlı ideyalar irəli sürmək.

**Maddə 6. Klubun strukturu**

6.1. Klub ən azı 5 (beş) nəfərdən ibarət olan tələbə – gənclər klubun ilk özəyidir;
6.2. Klub üzvlərinin sayı 20-dən çox olduğu təqdirdə sədr və sədr müavini daxil olmaqla 5 (beş) nəfərdən ibarət İdarə Heyəti seçilir;
6.3. Klub İdarə Heyətinin iclasları ən azı ayda 2 (iki) dəfə keçirilir.
6.4. İdarə Heyəti klubun fəaliyyətini KTŞ və şöbə tərəfindən təyin olunmuş koordinatorla əlaqələndirərək təşkil edir.

**Maddə 7. Yekun müdəalar**

7.1. Gələcəkdə bu Əsasnamənin müddəaları qanunvericiliklə ziddiyyət təşkil edərsə, qanunvericiliyin müddəaları tətbiq edilir.